# Yunus Oğuzun "Əmir Teymur" romanında Hökmdar və zaman

**Elnarə Qaragözova**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: e.garagozova.bsu@gmail.com
https://orcid.org/0000-0002-7356-3280

**Annotasiya.** Azərbaycan ədəbiyyatında Əmir Teymurun bədii obrazı intensiv işlənmişdir. Yunus Oğuzun "Əmir Teymur" romanında Əmir Teymur "ümumtürk xaqanı" kimi təsvir olunur. Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazı yalnız hökmdar kimi deyil, bir insan kimi də oxucunun rəğbətini qazanır. Romanın xarakterik cəhəti yazıçının tarixi həqiqətə və tarixi faktlara sadiq qalmaqla yanaşı, həm də oxucunu diqqətdə saxlamasıdır. Yazıçının digər romanlarında olduğu kimi, "Əmir Teymur" romanında da obrazın dinamikliyi oxucunu tarixi auraya kökləyir.
**Açar sözlər:** roman, tarix, siyasət, türk, hökmdar

http://dx.doi.org/10.29228/edu.168
**Məqaləyə istinad:** Qaragözova E. (2020) *Yunus Oğuzun "Əmir Teymur" romanında hökmdar və zaman obrazı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 231-235
**Məqalə tarixçəsi:** göndərilib – 06.07.2020; qəbul edilib – 13.07.2020

# Ruler and time in novel "Amir Teymur" by Yunus Oghuz

**Elnara Garagozova**
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: e.garagozova.bsu@gmail.com
https://orcid.org/0000-0002-7356-3280

**Abstract.** The image of Amir Teymur is widely developed in Azerbaijani literature. Amir Teymur is presented as "all Turkic khagan" in Yunus Oghuz's two part novel "Amir Teymur". The image of Amir Teymur created by Yunus Oguz arouses the reader's sympathy not only as a ruler but also as a human being. One of the characteristic features of Yunus Oguz's novel is that the writer, while remaining faithful to the historical truth and historical facts, first of all pays attention to the reader. As in other novels of writer, in the novel "Amir Teymur" the dynamism of the image can tune the reader to the historical aura.
**Keywords:** novel, history, politics, Turkish, ruler

http://dx.doi.org/10.29228/edu.168
**To cite this article:** Garagozova E. (2020) *The image of ruler and time in Yunus Oghuz's novel "Amir Teymur".* «Comparative Literature Studies», Issue I, pp. 231-235
**Article history:** received – 06.07.2020; accepted – 13.07.2020

### Giriş/ *Introduction*

Tarixi roman janrı dünya ədəbiyyatında mühüm yer tutur. Ədəbiyyatşünaslıqda çox zaman tarixi romanları simbioz janr hesab edirlər. Belə ki, bu janrı seçən yazıçı həm bədii təxəyyülü, həm də faktları birləşdirərək eyni dərəcədə həm ədəbiyyata, həm də tarixə söykənən mətn yaradır.

Tarixdəşəxsiyyətin rolu, insan faktoru tarixi romanların əsas mövzularından biridir. "Tarixi romanda əsas məsələ böyük tarixi hadisələrin təsviri deyil, həmin hadisələrdə iştirak edən insanların obrazının yaradılmasıdır. Bu o deməkdir ki, biz həmin tarixi reallığa mənsub insanların davranışını, düşüncə tərzini şərtləndirən sosial və insani motivləri anlamalıyıq." [1, s.44]

### Əsas hissə / *Main part*

Ədəbiyyatda tarixi şəxsiyyət – hökmdar obrazının müxtəlif rakurslardan işıqlandırılması tendensiyası izlənilir. Azərbaycan ədəbiyyatında geniş işlənən Əmir Teymur obrazının yaradılması prosesində də zaman-zaman müxtəlif meyillər, istiqamətlər özünü göstərmişdir. Əksər bədii əsərlərdə "işğalçı hökmdar" obrazında təsvir olunan Əmir Teymur Yunus Oğuzun iki hissədən ibarət "Əmir Teymur" romanında (I kitab – "Əmir Teymur: Zirvəyə doğru", II kitab –"Əmir Teymur: Dünyanın hakimi") "ümumtürk xaqanı" kimi təqdim edilir. Romanın məhz "Əmir Teymur" adlanması da təsadüfi deyil: "Planetlərin Xoşbəxt Düzülüşünün Hökmdarı (doğulanda ulduzların uyğun düzülüşünü göstərən titul), Dünya Fatehi, Əsrin İmperatoru, Yeddi İqlimin Məğlubedilməz Sərkərdəsi. Lakin bütün bu titulların fövqündə dayanan bir ad – Allahın Qamçısı, Teymur adı ona daha çox yaraşırdı" [2, s.9]. Romanın proloqunun sonundakı incə bir nüans – Əmir Teymurun qulağına gələn qurd səsi ilə reallıqda eşitdiyi azan səsinin paralelləşdirilməsi də onun türk-islam dünyasının böyük fatehi olduğuna işarədir. Əmir Teymur islam dininə mənsub olmaqla yanaşı, öz türk kökünü də yaddan çıxarmır. Hökmdar dini inanclardan həm də ordunu qələbəyə ruhlandırmaq, öz fateh obrazına əsgərlərdə şüuraltı, psixoloji inam yaratmaq üçün məharətlə istifadə edir: "Sabah sübh tezdən Böyük Əmir yürüşə başlayacaq. Bu axşam o dədə-baba qaydasına uyğun olaraq sonuncu ayini, şaman dualarını həyata keçirəcəkdi. Əmir Teymur qatı islamçı olsa da, yürüşqabağı bütün öncəgörənləri həmişə başına yığar, çox zaman isə onları özü ilə döyüşə aparardı. Dualar islamda da vardı və mömünün ən yaxşı silahı hesab olunurdu. Hökmdar öz yuxularına da çox üstünlük verər və onlara istinad edərdi. Bununla yanaşı, qədim türk adətlərindən irəli gələn ayinləri də yerinə yetirərdi. O, həm də öz əsgərlərinə bütün dinlərin və yozmaların onun tərəfində olduğunu, ona xeyir-dua verdiyini göstərmək istəyirdi. Bu öz uğurlu təsirini göstərir, ən azı əsgərin qələbəyə inamını artırırdı." [3, s.53]

Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazının əsas cizgilərindən biri hökmdarın şəyird məqamında təsviridir. Romanda biz yalnız hökmdar Teymurla deyil, həm də Seyid Bərkənin istedadlı şəyirdi Teymurla tanış oluruq. Məhz bu nüansla müəllif ustada hörmətin önəmini göstərir, ustadının nəsihətlərini hər şeydən üstün tutan Əmir Teymurun hakimiyyətinin, qələbələrinin əsasında məhz elmin, biliyin dayandığını, qılıncla qələmin vəhdətinin qələbənin təminatçısı olduğunu vurğulayır. Əmir Teymur Sultaniyyədə olarkən nəvəsi Uluqbəylə sufi məclisində olur, nəvəsinə bu məclisdə eşidib-gördüklərini yadda saxlamasını, gələcəkdə bunun ona çox lazım olacağını söyləyir. Nəvəsi Uluqbəylə, eləcə də oğlu Şahruxla söhbətlərindəƏmir Teymur oxucu qarşısına bir hökmdar kimi deyil, həm də bir müəllim, ustad kimi çıxır. O yalnız öyrənən deyil, həm də öyrədəndir. Yunus Oğuzun

Əmir Teymurun xarakterik xüsusiyyəti onun daim gələcəyə can atan, yalnız indini deyil, gələcəyi düşünən, gələcək üçün irs qoymaq istəyən bir hökmdar, cahangir olmasıdır.

Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazı yalnız hökmdar kimi deyil insan kimi də oxucuda özünə qarşı rəğbət hissi oyadır. Əmir Teymur romanda həm də bir həyat yoldaşı, ata, baba, qayınata kimi təsvir edilir. Onun həyat yoldaşları ilə təmkinli davranışı, oğullarına qarşı sərt olduğu qədər də mehriban olması, nəvələrinə hədsiz məhəbbəti, gəlininə nəvazişkar, qayğıkeş münasibəti Əmir Teymuru bir insan kimi də oxucunun gözündə ucaldır. Qarabağda ordusu ilə birgə qışlayarkən sevimli nəvəsi Uluqbəylə birgə bir çobana qonaq olan Əmir Teymur çobanı sadəliyi ilə heyrətləndirir. O, böyük əmiri nəvəsi ilə əylənən, fərəhlənən baba obrazında görür, hökmdarın nəvəsinə qoyunlar barədə verdiyi məlumatlara təəcüblənir və bir anlıq qarşısındakını bir hökmdar kimi yox, sadə bir insan kimi, doğma adam kimi qəbul edir. Romanın maraqlı obrazlarında biri olan tacir Ağbaba Sultan Bəyazidin qəbulunda Sultanın Teymurun necə bir insan olması haqqında verdiyi suala bu şəkildə cavab verir:

“Əmir Teymur ona tabe olmayanlara qarşı çox qəddardır. Tabe olmadınsa, axırına çıxmayana qədər rahatlıq tapmayacaq. Bu zaman onun üzünü görməsən yaxşıdır. Hər yan dağılar, hər yan yandırılar.

Mərhəmətlidir, ona görə ki, əfv edə bilir. Ən qatı düşmən də onun qarşısında diz çökdükdə, günahını boynuna aldıqda, səhvini etiraf etdikdə, onu bağışlayır, var-dövləti əlindən tamam almır.

Xəsisdir, ona görə ki, bir quruşunun da qədrini bilir, hamısının hesabatını aparır. Boşuna para xərcləməz. Özü istəməsə, heç kimə heç nə verməz. Bütün tutduğu yerlərin haqq-hesab dəftərini özü yoxlayır.

Səxavətlidir, ona görə ki, yığdığını müəyyən işlərə, məscidlərin tikilməsinə, bəxşişlərin verilməsinə xərcləyir.

Güclüdür, ona görə ki, məğlubedilməz ordusu var. Onun ordusu onun yumruğu kimi bir şeydir. İstəyəndə hamısını birdən yumur, hamısını birdən açır. Orduda elə qaydalar qoyub ki, hətta təzə gələn döyüşçü də onun əmrini sözsüz yerinə yetirir-ölümə getmək olsa belə. Gücü həm də onun başındadır. Çıxılmaz vəziyyətlərdə onun başı o qədər dəqiqliklə işləyir ki, təəccüb etməyə bilmirsən.

Zəifdir, ona görə ki, o, təkdir. Məvrannəhrdə onu əvəzləyəcək insan, başqa bir əmir yoxdur. Yaxınlarına, ətrafına böyük sevgisi var. Onların başına bir iş gələndə üzülür, bir neçə gün özünə gələ bilmir.

Nifrəti böyükdür, ona görə ki, sevdiyi iş, onun qoyduğu qaydalar pozulanda bağışlamır, hətta ən yaxını olsa belə. Onun sevgisi ilə nifrəti arasında ipək pərdə qədər məsafə mövcuddur" [3, s.196].

Əsərdə Əmir Teymurun ədalət prinsiplərinə sadiqliyi və qanunun aliliyinə xalqda inam yaratmaq üçün atdığı addımlar onun hakimiyyətinin əsasını, gücünün mənbəyini təşkil edir. Səmərqənd bazarının darğasının edamı zamanı bu özünü aşkar şəkildə göstərir. Yürüşə hazırlıq haqqında Səmərqənd hakimi Davud bəydən məktub alan darğa tamahına məğlub olur və döyüşüçün lazım olacaq xammalı daha sonradan baha satmaq üçün tacirlərə yürüş olmayacağını deyərək malları ucuza alıb öz anbarına yığır, bazarda süni qıtlıq və qiymət artımı yaradır. Darğanın və köməkçisinin edam edilməsi qərarını verən Əmir Teymur kiçik siyasi nüansı da diqqətdən qaçırmır. Xalqın onun ədalətindən şübhəyə düşərək yaxın adamı Davud bəyi qoruduğunu, darğanın edamında zərrə qədər də olsa haqsızlıq olduğunu düşünməsinə yol verməmək üçün darğadan xəbərdarlıq məktubu alıb-almadığını soruşur. Yalnız darğanın vaxtında xəbərdarlıq məktubu almasına baxmayaraq, bilərəkdən, tamah məqsədilə bazarda narazılıq və qıtlıq yaratdığına əmin olduqdan sonra edam yerinə yetirilir. “Əmir yaxın qohumunun boğazının kəndirdən qurtulduğunu başa düşüb dərindən nəfəs aldı. Ancaq Davud bəyin sözlərini darğa da təsdiqləməli idi. Əks təqdirdə paytaxt əhalisi bu hərəkəti düzgün başa düşməzdi. Odur ki, mühafizəçilərin köməyi ilə ayaqüstə güclə duran darğanın üstünə qışqırdı:

- Söylə, Davud bəy düzmü deyir? Göndəribmi sənə belə bir kağız?

Darğanın boynu üstündə güclə dayanan başı təsdiq əlaməti kimi tərpəndi. Bundan sonra Əmirin qırmancı qətiyyətlə darğaya və köməkçisi Ballıya tərəf uzandı:

- Kim fərmanımı pozarsa, hər kim ki xalqı çapıb talayarsa, ölkəyə xəyanət edərsə, haqqın üstünü örtərsə aqibəti belə olacaq. Haqqın divanından qurtulmaq olmaz! Mən qərarımı elan edirəm: asılsınlar!

Buna bənd imiş kimi birdən meydanı sürəkli alqış səsləri bürüdü. Əmirin şəninə alqış nidaları qopdu." [3, s.27]

Oxucu eyni ədaləti Teymurun oğlu Miranşaha münasibətində də görür. Miranşahın Azərbaycanda törətdiyi əməllərdən, əhalinin zülmə məruz qalmasından xəbər tutan Əmir Teymur oğlunu cəzalandırmaq üçün Azərbaycana gəlir. Hökmdar deyilənlər sübuta yetirildikdən sonra Miranşahı – doğma oğlunu edam etmək qərarına gəlir. Ata ürəyi ağrıyır, ancaq hökmdar qəlbi ədalətsizliyi qəbul edə bilmir. Onu bu sərt qərardan yalnız Miranşahın ağlının yerində olmaması ilə bağlı həkim rəyi döndərir.

Yunus Oğuz romançılığının xarakterik xüsusiyyətlərindən biri yazıçının tarixi həqiqətə, tarixi faktlara sadiq qalmaqla yanaşı, ilk öncə oxucunu diqqətdə saxlamasıdır. Belə ki, Yunus Oğuz tarixi romanda ilk növbədə ideya faktorunu əsas götürür. Əsas məqsəd tarixi və tarixi hadisənin oxucuya çatdırmalı olduğu ideyanı düzgün ifadə etməkdir. Yazıçı tarixin mesajını müasir oxucuya aydın çatdırmaq üçün əsəri tarixi interyerin, leksikanın ekzotikası ilə yükləmir. Yunus Oğuzun özü də müsahibələrindən birində bu məsələyə toxunaraq bildirir ki, "Çox zaman mənə müraciət edirlər ki, orta əsrlər dövründən yazdığım romanda niyə o dövrün sözlükləri yoxdur? Mən o dövrün sözlərindən heç birini işlətmirəm. Mənə bunu deyəndə bildirirəm ki, olmaz! Soruşurlar niyə? Deyirəm ki, mən XV əsrin insanları üçün yazmıram ki! Mən müasir insanlar üçün yazıram. Dili başa düşən insanlar üçün yazıram. XV əsrin sözlüklərini yazsam, gərək onun açıqlamasını da verəm. Açıqlamanı da verəndə oxucularda yoruculuq yaradır." [5]

## Nəticə / *Conclusion*

Yunus Oğuz romançılığının əsas uğuru müəllifin qəhrəmanlarını olduqca canlı, koloritli yaratması ilə bağlıdır. Yazıçının digər romanlarında olduğu kimi, "Əmir Teymur" romanında da obrazın koloriti, dinamikliyi oxucunu tarixi auraya kökləyə bildiyindən, əlavə leksik ştrixlərə, arxaizmlərə ehtiyac qalmır, romanda dövrün nəfəsi hiss olunur, əsəri mütaliə edənlər ilk səhifələrdən həmin tarixi dövrün bir hissəsinə, Əmir Teymurun silahdaşına çevrilirlər.

## Ədəbiyyat / *References*


1. Lukacs Georg. The Historical Novel. Harmondsworth, 1969.
2. Castin Marozzi. Dünya fatehi Teymur. Bakı, "Qanun", 2012.
3. Yunus Oğuz. Əmir Teymur: Zirvəyə doğru. Bakı, "Apostrof", 2011.
4. Yunus Oğuz. Əmir Teymur: Dünyanın hakimi. Bakı, "Apostrof", 2012.
5. Yunus Oğuz: "Tarix gələcək üçün bir işıqdır" https://news.day.az/society/420361.html

## Правитель и время в романе Юнуса Огуза «Амир Теймур»

**Эльнара Гарагозова**
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: e.garagozova.bsu@gmail.com

**Резюме.** Образ Амира Тимура широко распространился в азербайджанской литературе. В романе Юнуса Огуза Амир Тимур представлен как «каган всех тюрков». Образ Амира Тимура, созданный Юнусом Огузом, вызывает у читателя симпатию не только как правителя, но и как человека. Одной из характерных черт романа Юнуса Огуза является то, что писатель, оставаясь верным исторической правде и историческим фактам, прежде всего обращает внимание на читателя. Как и в других романах писателя, в романе «Амир Тимур» динамичность образа настраивает читателя на историческую ауру.
**Ключевые слова:** роман, история, политика, турецкий, правитель